Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 60 (1188) 31 mart - 1 aprel 2016-cı il

# ŞAMAXI: HARDAN BAŞLANIR VƏTƏN?

### *Min illərin “cavanı”- gözəl Şamaxı*

**Şamaxının keşməkeşli tarixi, keçmiş şöhrəti haqqında o qədər yazılıb və danışılıb ki, indi bunları yenidən xatırlamaq o qədər də vacib deyil. Qədim dünya tarixindən üzü bu yana bu şəhərin dəqiq yaşını, yaranışını da müəyyənləşdirmək olmur ki! 3000 il, 5000 il? Yoxsa elə doğma məmləkətin yaşı qədər? Hər nədirsə o məşum faciələr də bu yurdun acı taleyinə yazılıb, o möhtəşəm tarixi hadisələr, Şirvanşahlar, dahi ədiblər, abidələr də!**

Əsas odur ki, qədim və müasir Şamaxı bu gün həmin o tarixi gerçəkliyin üzərindən daha işıqlı, daha möhtəşəm görünməkdədir. Cənab Prezidentimizin bu rayon haqqındakı son sərəncamlarını xatırlasaq, bir daha əmin olarıq ki, Şamaxının qədim ənənələr istiqamətində necə böyük inkişafı, yüksəlişi davam etməkdədir. Ölkə rəhbərliyinin böyük qayğı və diqqəti şamaxılıları daha yaxşı çalışmağa, yaşamağa ruhlandırır.

**“...Kənd təsərrüfatının, sahibkarlığın inkişafı bizim üçün prioritet istiqamətlərdir. Biz ərzaq təhlükəsizliyimizi tam şəkildə təmin etməliyik. Bu istiqamətdə çox önəmli addımlar atılır. Özümüzü əsas ərzaq məhsulları ilə 100 faiz təmin etmək üçün biz artıq bu hədəfə yaxınlaşırıq. Ərzaq təhlükəsizliyimizin tam şəkildə təmin edilməsi, ixrac potensialımızın artırılması gələcəkdə həm iş yerlərinin yaradılmasına, eyni zamanda, insanların rifah halının yaxşılaşmasına xidmət edəcəkdir”.**

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev***

### *Yeni uğurlara səfərbər olmaq*

Ölkəmizin hər yerində olduğu kimi, Şamaxı rayonunda da 2015-ci il uğurlarla yola salınmış, 2016-cı ilin ilk aylarından başlayaraq yeni nailiyyətlər qazanılması üçün qüvvələr səfərbər edilmişdir. Bütün bu məsələlər barədə ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş ümumrayon yığıncağında da geniş söhbət getmişdir. Yığıncaqda məruzə ilə çıxış edən Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev demişdir:

- Ötən il ölkəmizin sosial-iqtisadi inkişafını xarakterizə edən ümumi daxili məhsul 1 faizdən çox, sənaye istehsalı 2,4 faiz, qeyri-neft sənayesi isə 8,4 faiz artmışdır. Bütün bunlar Azərbaycanda aparılan uğurlu islahatların, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində aparılan məqsədyönlü tədbirlərin nəticəsidir. İl ərzində ölkə iqtisadiyyatına 20 milyard dollara yaxın sərmayə qoyulmuş, bunun da nəticəsində bir sıra vacib layihələr, nəhəng infrastruktur obyektləri tikilib istifadəyə verilmişdir. Ötən il nəzərdə tutulmuş bütün sosial proqramlar uğurla icra edilmiş, 60-a yaxın tibb müəssisəsi, 20-dən çox məktəb tikilmiş və ya təmir edilmişdir. Bu gün 112 min ailə, təqribən 500 minə yaxın insan hər ay dövlətdən 152 manat yardım alır və il ərzində verilən bu məbləğ 7 faiz artmışdır.

Nazirlər Kabinetinin iclasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev yekun nitqində 2016-cı ildə qeyri-neft sektorunun inkişafının prioritet olacağını, neftdən asılılığın minimuma endirilməsi ilə bağlı tədbirlərin görüləcəyini bildirib. Dövlət başçısı manatın məzənnəsindən danışarkən qeyd edib ki, son vaxtlar müşahidə olunan qiymət artımı yerli məhsullara şamil edilməməlidir: ”İstehlak qiymətlərinə çox ciddi nəzarət etmək lazımdır. Manatın məzənnəsinin dəyişməsi ilə bağlı bəzi işbazlar süni şəkildə qiymətləri qaldırmaq istəyirlər”.

İclasda 2016-cı ildə pensiya və əməkhaqlarının qaldırılması ilə bağlı hökumətə təkliflər hazırlamağı tapşıran dövlətimizin başçısı kənd təsərrüfatında islahatların genişləndirilməsi, meliorasiya tədbirlərinin davam etdirilməsi, əhalinin su, qaz və elektrik enerjisi ilə təchizatının daha da yaxşılaşdırılması, regionlarda sənaye zonalarının yaradılmasının sürətləndirilməsi, dotasiya ilə yaşayan rayonların iqtisadi səmərəliliyinin artırılması ilə bağlı tapşırıqlar verib və görülən işlərlə əlaqədar hər rüb məlumat verilməsi ilə bağlı rayon icra başçıları qarşısında tələb qoyub.

Çıxışının sonunda dövlətimizin başçısı 2016-cı ildə Bakıda bir neçə mötəbər tədbirin, o cümlədən BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun keçiriləcəyini bildirib, ölkəmizin tolerantlıq ənənələrinə, mədəniyyətlər və sivilizasiyalararası dəyərlərə mühüm töhfələr verdiyini nəzərə alaraq 2016-cı ili Azərbaycanda ”Multikulturalizm ili” elan edib.

2015-ci ildə Azərbaycanın ən qədim şəhərlərindən biri olan Şamaxının abadlaşdırılması və yenidənqurulması, sosial problemlərin həll edilməsi uğurla davam etdirilmişdir. ”Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrası ilə əlaqədar ötən müddət ərzində rayonumuzun abadlaşdırılması və əsas sosial problemlərin həlli istiqamətində xeyli işlər görülmüşdür. 2015-ci ildə Şəhriyar qəsəbəsinin ərazisində DİN-nin Baş Pasport Qeydiyyat və Miqrasiya İdarəsinin Şamaxı Regional şöbəsi üçün inzibati binanın tikintisi başa çatdırılaraq əhalinin istifadəsinə verilmişdir. Şəhərin N.Nərimanov küçəsində yenidənqurma və abadlıq işləri davam etdirilmişdir. Yeni layihəyə uyğun olaraq küçədə barılar və piyada səkiləri yenidən qurularaq xüsusi materiallarla üzlənmiş, küçə boyu yeni yaşıllıqlar salınmışdır.

Şəhərin M.Ə.Rəsulzadə küçəsinə 22 min kv.metr asfalt-beton örtüyü vurulmuşdur. Şəhərdə penoplast üzlük materialı ilə üzlənmiş çoxmənzilli yaşayış binalarının və digər sosial obyektlərin üzlük materialları sökülmüş, onların yenidən üzlənməsi işlərinə başlanılmışdır. Aşıq Məmmədağa küçəsində yerləşən 4 ədəd 2 mərtəbəli hər biri 16 mənzildən ibarət yaşayış binalarının dam örtüyü dəyişdirilərək yenisi ilə əvəz edilmişdir.

Şamaxı-Pirqulu avtomobil yolunun Əngəxaran kəndinin girişində abadlıq və yenidənqurma işləri aparılmışdır. Belə ki, 500 metr məsafəyə bordür çəkilərək piyadalar üçün yeni səkilər salınaraq asfalt-beton örtüyü vurulmuş, həmin ərazidə bütün evlərin fasad hissələri suvanaraq rənglənmiş, dam örtükləri yenisi ilə əvəz edilmiş, yeni küçə işıqları quraşdırılmış və mərkəzi yolun kənarına istinad divarı çəkilmişdir.

**Rayonun Çuxuryurd kəndində də yeni layihəyə uyğun abadlıq və yenidənqurma işləri aparılır. Kənddə ulu öndər Heydər Əliyevin adını daşıyan parkda yenidənqurma və abadlıq işlərinə başlanmış, parkın ərazisində yerləşən mədəniyyət evinin fasad hissəsi və binanın dam örtüyündə təmir işləri aparılmışdır. Kəndin mərkəzi küçəsində piyadalar üçün səkilərin yenidən çəkilməsinə başlanmışdır.**





**(ardı gələn sayımızda)**

***Məzahir ƏHMƏDOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ